# İdman xəbərləri

## Futbolçularımız millinin düşərgəsində

21 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışını davam etdirir. 4 günlük hazırlıq prosesinə 22 futbolçu qatılıb. Antalyada toplanışda olan "Qəbələ"nin 3 üzvü də yığmanın düşərgəsindədir. Onlar "qırmızı-qaralar"ın hazırlığını müvəqqəti tərk edərək millinin məşqlərinə qatılıblar. Bunlar Murad Popov, Amin Seydiyev və Rövlan Muradovdur. Onların da heyətində yer aldığı yığma yanvarın 24-dək toplanışda olacaq.

Millimiz hazırlığın son günündə Rusiyanın "Spartak-2" (Moskva) komandası ilə qarşılaşacaq.

## «Qəbələ» Rusiya klubu ilə heç-heçə etdi

Mövsümün ikinci yarısının hazırlıqlarını davam etdirən "Qəbələ" növbəti yoxlama oyununu keçirib. "Qırmızı-qaralar" Türkiyənin Antalya şəhərindəki təlim-məşq toplanışı çərçivəsində ikinci sınağına çıxıb. Komandamız Rusiyanın "Yenisey" klubu ilə qarşılaşıb.



Belek bölgəsindəki "Cornelia Diamond" otelinin meydançasında baş tutan matçdan öncə 20 yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Qarşılaşmada hesab 53-cü dəqiqədə açılıb. Rauf Əliyev Rusiya təmsilçisinin qapısına qol vurub. Üç dəqiqə sonra şimallılar Aleksey Qritsayenkonun qolu ilə hesabı bərabərləşdirib. 71-ci dəqiqədə "Yenisey"in qapısına təyin olunan penaltini Sabien Lilay dəqiq yerinə yetirib. Hakimin final fitinə 4 dəqiqə qalmış Rusiya Premyer Liqası təmsilçisi Aleksandr Kutyinin qolu sayəsində hesabda tarazlıq yaradıb - 2:2.

Beləliklə, yoxlama oyunu məhsuldar heç-heçə ilə başa çatıb.

## Əzgilin faydaları

Əzgil ölkəmizdə qədim dövrlərdən becərilən aborigen və qiymətli meyvə bitkisi olsa da biz onun faydaları haqqında az məlumatlı olduğumuzdan qidamızda, xüsusən də təbabətdə ondan geniş istifadə etmirik. Halbuki həm əzgil, həm də onun çəyirdəyi və yarpağı bir çox xəstəliklərin müalicəsi üçün əla vasitədir.

Əzgilin meyvəsinin tərkibində şəkərlər, turşular (əsasən alma turşusu), dabbaq maddələri, azotlu maddələr, pektin, karbohidratlar, həmçinin müxtəlif vitaminlər (A, C, B1, B2, B3, B6, B9), mikroelementlər (kalium, kalsium, dəmir, maqnezium, yod, fosfor, natrium, selen, sink), fitonsidlər, dabbaq maddələri var. 100 qram meyvənin kaloriliyi 53 kilokaloridir.

Meyvələri tam yetişdikdən sonra yeyilmək və emal üçün yararlı olur. Təzə halda istifadədən başqa əzgil meyvələrindən mürəbbə, cem, povidlo, sidr tipli içkilər və sair hazırlanır.



Əzgil meyvələri fitonsidlər və dabbaq maddələri kompleksinə malik olduqlarından damarların möhkəmliyini artırır və büzüşdürücü xüsusiyyətə malikdir. Ona görə də o, ateroskleroz, hipertoniya, ishalın profilaktikası, bağırsaqların fəaliyyətinin yaxşılaşdırılması və müalicəsində istifadə olunur.

Əzgil meyvələri, həmçinin sidik daşı xəstəliyinin müalicəsində faydalı sayılır. Soyuqlamanı aradan qaldırır. Lakin adi halda çox yedikdə qarın ağrılarına səbəb ola bilir.

Əzgilin meyvəsinin, yarpağının və toxumlarının qarışığından hazırlanmış kompot, ishalla müşayiət olunan kolit xəstəliyinə qarşı əlverişli sayılır. Meyvə lətinin spirtdə məhlulu bronxial astma xəstəliyinin müalicəsində və həmçinin nəfəs yollarının yaxşılaşdırılması üçün istifadə edilir.

## Bilirsinizmi?

✦ İlin uzunluğu–365 gün 5 saat 48 dəqiqə 46 saniyədir.

✦ Hörümçəyin qan təzyiqi insandakı kimidir.

✦ Bərabərlik işarəsindən ilk dəfə İngilis alimi Rekord XVI əsrdə istifadə etmişdir.

✦ İlk qlobusu 1492-ci ildə Alman geoloqu M. Bexayon hazırlayıb.

✦ Günəşin yerdən məsafəsi 149.597.870 km-dir.

✦ Milyardadək saymaq üçün dəqiqədə 200-ə qədər saymaq hesabı ilə 9 il, 1 gün, 20 saat, 56 dəqiqə vaxt lazımdır.

✦ General Ceyms Bari Britaniya ordusunda 52 il xidmət etmişdir. Öləndə məlum olub ki, o, qadın imiş.

✦ Hesablanmışdır ki gürzənin bir qram zəhəri 66 adamı, 2500 göyərçini, 100 iti, 62 atı, 3300 qurbağanı, 33.200 siçanı öldürə bilər.

✦ Dynanın ən məşhur paliqlotu A.Yuşmakov olmuşdur. O ömrünün sonunadək 200 dil öyrənmiş, 50 dildə isə elmi mühazirələr oxumuşdur.

**Toplayanı:**
**Mirhəsən AĞAYEV.**

## Qəbələ Rayon Mərkəzi Xəstəxanası aşağıdakı maddələr üzrə satınalmaları həyata keçirmək məqsədilə katirovka sorğusu ELAN EDİR

1. Dəftərxana və təsərrüfat xərcləri
2. Mətbəə xərcləri
3. İdarənin digər xərcləri
4. Digər nəqliyyat xərcləri
5. Yumşaq inventar
6. İnventar
7. Avadanlıq
8. Cari təmir
9. Əsaslı təmir
10. Maşın və avadanlıq (əsas vəsait)
11. Kommunal və kommunikasiya xidmətləri

Katirovka sorğusunda iştirak etmək istəyənlər təklifləri və hüquqi sənədləri 05 fevral 2019-cu il saat $15^{00}$-dək RMX-nın Tender komissiyasına təqdim etməlidirlər.

***Ünvan:* Qəbələ ş. Abbas Səhhət küçəsi 12.**

***Əlaqə telefonu:***
**024-20-5-13-46**

***Əlaqələndirici şəxs:***
**Hüseynov Sadiq Sahib oğlu.**



*Qəbələdə irili-xırdalı 100-dən artıq turizm obyekti turistlərin xidmətindədir...*


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə

2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## İtmişdir

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 28 oktyabr 2014-cü il tarixdə **Məmmədova Pərvanə Kərim qızına** verilmiş RX senriyalı 0506173 nömrəli (reyestr nömrəsi 406013059577, qeydiyyat nömrəsi 1914007951) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və həmin tarixdə verilmiş AA seriyalı 006468 nömrəli (reyestr nömrəsi 406013059577) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Kiçik Pirəli kənd sakini **İsgəndərov Sədiyar Məhəmməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0202 nömrəli (kod 40602018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakitni **Məsimov Məzahir Mikayıl oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 241 F nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

**İsgəndərova Əsmər Çingiz qızına** 26 iyul 2013-cu il tarixdə verilmiş AC seriyalı 019179 B nömrəli **sürücülük vəsiqəsi** və 90 FM 880 dövlət nömrə nişanlı avtomobilinin AB seriyalı 313880 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 aprel 2002-ci il tarixli 03 saylı qərarı ilə Zarağan kənd sakini **Məmmədov Səhrab Qurban oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0645 nömrəli (kod 40608018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 may 1997-ci il tarixli 25 saylı qərarı ilə Solquca kənd sakini **Daşdəmirov Müsavər Səbzalı oğluna** verilmiş JN seriyalı 0034 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Varis Yaqubov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.